

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 1 (21.411)

*2 yanvar 2016-cı il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan şəhərində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı qeyd olunmuşdur





Ölkəmizdəki mövcud sabitlik və inkişaf insanların gələcəyə olan inamını daha da artırır, xalqımız qarşıdan gələn hər ili birlik və həmrəylik duyğuları ilə qarşılayır. Yola saldığımız 2015-ci il müstəqil Azərbaycanın tarixində uğurlu inkişaf dövrü kimi qalacaqdır. Ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin davam etdirilməsi Naxçıvan Muxtar Respublikasında abadlıq-quruculuq işlərinin əhatə dairəsini genişləndirmiş, yaşayış məntəqələri daha müasir görkəmə qovuşmuşdur. İstifadəyə verilən yeni yollar, səhiyyə, təhsil və mədəniyyət müəssisələri, sənaye kompleksləri qədim diyarın inkişafında yeni mərhələnin əsasını qoymuşdur.

Dekabrın 31-də Naxçıvan şəhər sakinləri və şəhərimizin qonaqları həmrəylik bayramını və yeni ilin gəlişini elliklə, qurub yaratmaq əzmilə, böyük ruh yüksəkliyi və bayram gəzintisi şəraitində qeyd etdilər.

Naxçıvan şəhəri günlər öncədən bayram libasına bürünmüşdü. İnsanların xoş çöhrəsi çilçıraqlı küçə və prospektlərdə, ağ örpəyə bürünmüş parklarda möhtəşəm bayram lövhələri yaratmışdı. Axşam saatlarında Heydər Əliyev prospektindəki mərkəzi meydanda konsert proqramı təşkil olunmuş, Vətənimizi, həmrəyliyi, yeni ili tərənnüm edən mahnılar səslənmiş, gənclər rəqs edərək xoş anlar yaşamışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ailə üzvləri ilə birlikdə bayram şənliyinə gəlmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına televiziya vasitəsilə təbriki mərkəzi meydanda və şəhərin digər yerlərində quraşdırılan monitorlar vasitəsilə yayımlanmışdır. Azərbaycan xalqına xoş arzularını çatdıran ölkə Prezidenti demişdir: ***“Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Biz güclü dövlət qururuq, güclü iqtisadiyyat qururuq, eyni zamanda insanların rifahı bizim üçün həmişə prioritet məsələ olubdur və olacaqdır… Azərbaycan demokratiya yolu ilə gedir, inkişaf yolu ilə gedir və bu, bizim şüurlu seçimimizdir. Xalq-iqtidar birliyi, milli həmrəylik bu gün ən yüksək səviyyədədir. Bizim əsas vəzifəmiz ondan ibarətdir ki, dövlətimizi daha da gücləndirək, Azərbaycan xalqının daha da yaxşı həyatını təmin edək”.***

Gecə saatlarında Naxçıvan şəhərinin mərkəzi meydanında möhtəşəm bayram atəşfəşanlığı olmuş, yeni il xoş ovqat və böyük təntənə ilə qarşılanmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda yeni ilin gəlişi münasibətilə bayram şənlikləri keçirilmişdir






Muxtar respublika sakinləri 2016-cı ilin ilk günlərini böyük sevinc hissi ilə qarşılayır. İnsanlar əmindir ki, ölkəmizin davamlı inkişaf və tərəqqisi bu il də bütün sahələrdə nailiyyətlərin qazanılmasına imkan verəcəkdir.

Yanvarın 1-də ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasının şəhər və rayon mərkəzlərində də bayram şənlikləri keçirilmişdir.

Naxçıvan şəhərinin sakinləri ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan prospektdəki mərkəzi meydanda təşkil olunan bayram şənliyinə toplaşmışdı. Yeni ilin gəlişini tərənnüm edən mahnıların səslənməsi, Naxçıvan Dövlət Kukla Teatrının aktyorlarının göstərdikləri səhnəciklər şənliyə gələnlərdə əsl bayram əhval-ruhiyyəsi yaratmışdır.

Mərkəzi meydanda 40-dan artıq istehsal və xidmət müəssisəsi tərəfindən ictimai-iaşə xidməti göstərilmiş, sənətkarların əl işlərindən ibarət sərgi təşkil olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bayram şənliyinin keçirildiyi mərkəzi meydana gəlmiş, sakinlərin Yeni il bayramını təbrik etmişdir.

Ali Məclisin Sədri ictimai-iaşə xidmətinin təşkili ilə maraqlanmış, uşaqlara hədiyyələr vermişdir.

Muxtar respublikada yeni il şənlikləri bayram günlərində davam edəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı muxtar respublikanın rayonlarında da yüksək əhval-ruhiyyə ilə qeyd edilib

### *Şərur rayonu*



Dünya Azərbaycanlılarının Həmrəylik Gününü 24 ildir ki, qeyd edirik. Yeni il ərəfəsində keçirilən bu bayram sevinc hislərimizi daha da artırır. Hər başa çatan il muxtar respublikamıza böyük uğurlar, insanlara xoş gün-güzəran bəxş etdiyi kimi, bayramlarımız da ilbəil daha böyük təntənə ilə qeyd olunur, zəhmətkeş, tərəqqipərvər, qədirbilən xalqımız bu günləri xoş əhval-ruhiyyə ilə qarşılayır, gələcəyə daha inamla baxır.

Blokada şəraitində olmasına baxmayaraq, muxtar respublikamızda bütün sahələrdə əldə edilən uğurlar əhalinin rifah halının yüksəlməsinə səbəb olub, regionda həyata keçirilən tədbirlərdən hər bir ailə, hər bir vətəndaş bəhrələnib. Elə buna görədir ki, illər öncə yeni ili qaranlıqda, kasad süfrə ilə qarşılayan naxçıvanlılar bu gün bayramları böyük ruh yüksəkliyi ilə qarşılayırlar. Builki bayramların böyük şövqlə keçirilməsində “Kənd təsərrüfatı ili”ndə qazandığımız nailiyyətlər də böyük rol oynayıb.

Muxtar respublikamızın ən böyük bölgələrindən biri sayılan Şərur rayonunda da “Kənd təsərrüfatı ili”nin çoxsaylı bəhrələri var.

Bu dövrdə 483 torpaq mülkiyyətçisi 8 min 737 hektar əkin sahəsinin becərilməsi üçün 435 min 850 manat, 620 hektarda təkrar əkinlər keçirən 81 kiçik sahibkar 31 min manat yardım alıb, Sahibkarlığa Kömək Fondu tərəfindən

*Ardı 2-ci səhifədə*

264 min 100 manat kredit verilib. 1435 ton üzüm, 6 min 476 ton bostan məhsulları, 2 min 504 ton dən üçün qarğıdalı, 11 min 43 ton kartof, 4 min ton soğan istehsal olunub.

"2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində işlər davam etdirilib, 15 hektar sahədə yeni bağlar salınıb, 23,2 hektar meyvə bağında bərpa işləri aparılıb, 52 min ədəd müxtəlif tinglər əkilib. İl ərzində sahələrdən 20 min 357 ton meyvə, 28 min 661 ton tərəvəz tədarük edilib.

2015-ci ildə iqtisadiyyatın və sosial sahələrin inkişafı istiqamətində bütün maliyyə mənbələrindən əsas kapitala 71 milyon 77,4 min manat investisiya yönəldilib, tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 4,6 faiz artaraq 66 milyon 695 min 200 manat təşkil edib.

Bu dövrdə Şərur şəhərində aviakassa binasının, Cəlilkənddə Cəlil Məmmədquluzadənin Xatirə Muzeyinin, Buzxananın, Kürçülü, Axaməd, Kürkənd və Yuxarı Yaycı kəndlərində kənd və xidmət mərkəzlərinin, Yengicə kəndində Azərbaycan Vətən müharibəsi əlili üçün üçotaqlı mənzilin, Kürkənddə və Aşağı Aralıq kəndində mərasim yerinin, Aşağı Aralıqda dəyirmanın tikintisi başa çatdırılıb. Kürkənddə 216, Cəlilkənddə 342, Axaməd kəndində 192, Yuxarı Yaycı kəndində 144, Kürçülü kəndində 234 şagird yerlik məktəb binaları, Cəlilkənddə həkim ambulatoriyası, mədəniyyət evi, kənd və xidmət mərkəzləri istifadəyə verilib. Hazırda Şərur şəhərindəki 2 nömrəli tam orta məktəb binasının, Fizika-Riyaziyyat Təmayüllü Lisey üçün tədris korpusunun və yataqxananın, Oğlanqalada kənd və xidmət mərkəzlərinin, tam orta məktəbin və digər obyektlərin tikintisi, yaxud yenidən qurulması işləri davam etdirilir.

Dünən Şərur rayonunun sakinləri Dünya Azərbaycanlılarının Həmrəylik Gününü və Yeni ili əldə olunan bu nailiyyətlərin yaratdığı yüksək əhval-ruhiyyə ilə qeyd ediblər. Şaxta baba və Qar qızın, yaradıcı kollektivlərin çıxışları alqışlarla qarşılanıb. Bayram tədbirində ən çox sevinən isə uşaqlar olublar. Onlar küknarlar ətrafında rəqs edib, mahnılar oxuyub, şeirlər söyləyiblər.

Rayon Mədəniyyət Evinin "Arpaçay" instrumental, "Şərur qönçələri" və "Şərur" Xalq Yallı ansambllarının ifalarında səslənən musiqi nömrələri və rəqslər tədbir iştirakçıları tərəfindən rəğbətlə qarşılanıb.

## Babək rayonu



Sosial-iqtisadi uğurlarla yadda qalan "Kənd təsərrüfatı ili" – 2015-ci il tarixə qovuşdu. Muxtar respublika sakinləri yeni ili xoş niyyətlərlə, yüksək əhval-ruhiyyə ilə qarşıladılar. Yanvarın 1-də muxtar respublikamızın hər yerində olduğu kimi, Babək qəsəbə mərkəzində, Nehrəm və Cəhri kəndlərində bayram şənlikləri keçirilib. Şənliklərdə milli həmrəyliyimizi, yeni ilin gəlişini tərənnüm edən mahnıların səslənməsi, Şaxta baba və Qar qızın çıxışları şənliyə gələnlərdə xoş ovqat yaradıb.

Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə yaradılan Babək rayonu bu gün özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Son illər yeni inzibati binaların və sosial obyektlərin istifadəyə verilməsi rayon mərkəzinin simasını tamamilə dəyişib. Abad yolları, təmiz və işıqlı küçələri, yaraşıqlı binaları ilə seçilən Babək qəsəbəsi müasir şəhər görkəmi alıb. 2015-ci il Babək rayonu üçün daha əlamətdar olub. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin muxtar respublikamıza səfəri çərçivəsində rayon ərazisində yerləşən Günəş Elektrik Stansiyasının, Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun, Nehrəm kənd 2 nömrəli tam orta məktəbin açılışında iştirak etməsi və burada həyata keçirilən quruculuq tədbirlərini yüksək qiymətləndirməsi rayon sakinlərində böyük ruh yüksəkliyi yaradıb, onların qurub-yaratmaq əzmini yüksəldib. Bundan əlavə, 2015-ci ildə Babək qəsəbəsində Babək Rayon Rabitə İdarəsi və "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin Babək rayon filialı üçün yeni inzibati bina tikilib, qəsəbədəki 5 mərtəbəli yaşayış binası təmir olunaraq ətrafı abadlaşdırılıb. Babək qəsəbəsində 2 nömrəli tam orta məktəb, qəsəbə və xidmət mərkəzləri, Xal-xalda tam orta məktəb və kənd mərkəzi üçün yeni binalar inşa olunaraq istifadəyə verilib. Hazırda Yarımcada kənd mərkəzi, həkim ambulatoriyası və xidmət mərkəzi, Xəlillidə kənd mərkəzi, tam orta məktəb binası və xidmət mərkəzi üçün yeni binaların tikintisi, Yarımca kənd tam orta məktəb binasının isə əsaslı təmiri davam etdirilir.

Əldə olunan nailiyyətlər bütün sahələri əhatə edir. Bütün bunlar isə rayon sakinləri ilə apardığımız söhbətlərdə bir daha dilə gətirildi. İnsanlar görülən bu işləri ölkəmizdəki sabitliklə, əmin-amanlıqla əlaqələndirdilər. Hər kəs günbəgün inkişaf edən diyarımızda bayramların belə yüksək səviyyədə qeyd olunmasına görə dövlətimizə öz minnətdarlığını bildirdi, arzularını dilə gətirdi: "Qoy bu sabitlik və inkişafımız daimi, həmrəyliyimiz əbədi olsun ".

## Ordubad rayonu



Ordubad rayonunda da 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı təntənə ilə qeyd edilib, rayon əhalisi böyük ruh yüksəkliyi ilə Ordubad şəhərində keçirilən bayram tədbirlərinə qatılıb. Rayonun mədəniyyət müəssisələrinin və musiqi məktəbləri kollektivlərinin təqdim etdikləri musiqi nömrələri bayram şənliyi iştirakçıları tərəfindən alqışlarla qarşılanıb. Böyük bayram izdihamının olduğu tədbirdə milli birliyimizə, həmrəyliyimizə, dövlətçiliyimizə, müstəqilliyimizə, doğma yurdumuza həsr olunan şeirlər səsləndirilib, mahnı və rəqslər tədbir iştirakçılarına xoş ovqat bəxş edib, Şaxta baba və Qar qız uşaqlara bayram sovqatı veriblər.

Tədbirin aparıcıları bildiriblər ki, yola saldığımız 2015-ci il rayon sakinləri üçün bir sıra əlamətdar hadisələrlə yadda qalıb. Ötən il Ordubad şəhərində 3 nömrəli məktəbin, müasir aviakassa binasının, görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin ev-muzeyinin, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Ordubad Rayon Avtomobillərin Müayinə Mərkəzinin, Tivi və Gilançay kəndlərində yeni sosial obyektlərin istifadəyə verilməsi ordubadlılarda bu bölgənin gələcəyinə olan inamı artırıb, onları qarşıdan gələn ildə daha yaxşı çalışmağa və rayonun daha da çiçəklənməsi naminə əzmkarlıq nümayiş etdirməyə sövq edib.

Ümumiyyətlə, hər ötən il Ordubad rayonuna yeni ərməğanlar bəxş edib. Son 20 ildə rayonda 80-dən çox obyekt inşa edilərək və ya yenidən qurularaq istifadəyə verilib, onlarla yaşayış məntəqəsi, eləcə də ucqar dağ yaşayış məntəqələri abad kəndlər sırasına qoşulub. Ötən müddətdə 27 ümumtəhsil məktəbi, 1 musiqi məktəbi, 1 uşaq bağçası, 24 səhiyyə, 1 idman, 29 mədəniyyət obyekti inşa edilərək istifadəyə verilib, 15 kənd mərkəzi həyata vəsiqə alıb. 2002-ci ildə rayonda əsas kapitala yönəldilmiş investisiyaların tikinti-quraşdırma işlərinə ayrılan həcmi 330 min manat idisə, təkcə 2015-ci ilin 10 ayında bu rəqəm 44 milyon 165 min manat təşkil edib. Bu fakt bir daha göstərir ki, rayonda tikinti-quruculuq işlərinin miqyası ilbəil genişləndirilir. Bütün bu görülən işlər rayonun dünənindən bu gününə seçilən düzgün yolun qazandırdığı nailiyyətlərdən, dövlətimizin rayon sakinlərinin rahat yaşamasına və işləməsinə diqqətindən, bir sözlə, muxtar respublikada insan amilinə verilən önəmdən xəbər verir.

Bütün bu tədbirlər onu deməyə əsas verir ki, 2016-cı ildə də Ordubad rayonunun davamlı sosial-iqtisadi inkişafı təmin olunacaq, dövlət proqramlarına uyğun olaraq hər bir sahədə yeni layihələr reallaşdırılacaq, rayonda yeni sənaye müəssisələri açılacaq, hər bir rayon sakininin rahat yaşaması üçün görülən işlər davam etdiriləcək.

## Culfa rayonu



Əvvəlki illər kimi, 2015-ci il də Naxçıvanın inkişaf tarixinə böyük hərflərlə yazıldı. Ötən il muxtar respublikamız üçün yaddaqalan oldu. Ölkəmizdə, o cümlədən muxtar respublikamızda 2015-ci il "Kənd təsərrüfatı ili" elan edilmişdi.

Qeyd olunmalıdır ki, müasir dünya ölkələrinin əksəriyyəti üçün bu ilin mürəkkəb, eyni zamanda gərgin ictimai-siyasi vəziyyətdə keçdiyini nəzərə alsaq, ölkəmiz üçün perspektivli illər sırasına daxil olan 2015-ci il, ümumilikdə, Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası üçün, necə deyərlər, düşərli il oldu. "Kənd təsərrüfatı ili"ndə əldə edilən uğurlardan muxtar respublikanın bütün rayonlarına pay düşdü. Bu dövrdə Culfa rayonunda 28 milyon 80 min 200 manatı bitkiçilikdə, 16 milyon 105 min 400 manatı heyvandarlıqda olmaqla, ümumilikdə, 44 milyon 185 min 600 manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,2 faiz çoxdur.

Rayon iqtisadiyyatının bütün sahələrinin dinamik inkişafı tikinti-quraşdırma, abadlıq və yenidənqurma işlərinin artmasına, yeni infrastruktur obyektlərinin yaradılmasına imkan vermişdir.

Rayonun Qızılca, Gal və Şurud kəndlərində yeni kənd və xidmət mərkəzləri, Bənəniyar kəndində xidmət mərkəzinin, Culfa şəhərində Naxçıvan Muxtar Respublikası Dövlət Yol Polisi İdarəsinin Culfa Rayon Müayinə Mərkəzinin tikintisi, Bənəniyarda kənd mərkəzinin, Culfa şəhərinin M.Əsgərov küçəsində yerləşən 17, 18 və 20 nömrəli yaşayış binalarının əsaslı təmiri başa çatdırılmış, Saltaq Kənd Mərkəzinin və xidmət mərkəzinin, Culfa şəhərində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Axtarış İdarəsinin inzibati binasının və yardımçı binalarının tikintisi davam etdirilmişdir.Həmçinin Qızılca kəndində 120, Gal kəndində 96 şagird yerlik yeni məktəb binaları tikilmiş, Bənəniyar kəndində 648, Şurud kəndində 110 şagird yerlik məktəb binalarının əsaslı təmiri və yenidən qurulması başa çatdırılmış, Saltaq kəndində isə 252 şagird yerlik yeni məktəb binasının tikintisi davam etdirilmişdir.

Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini vermiş, əhalinin məşğulluğu təmin olunmuş, maddi rifahı daha da yaxşılaşmışdır. Culfalılar növbəti ili bayram əhval-ruhiyyəsi ilə qarşılamışlar.

Qazanılan uğurlar, əldə edilən nailiyyətlərdən Culfa şəhərində keçirilən bayram şənliyində ətraflı bəhs olunmuşdur. Şaxta babanın, Qar qızın, nağıl qəhrəmanlarının, rayon Mədəniyyət Evinin özfəaliyyət və Culfa şəhərindəki uşaq musiqi məktəbi kollektivlərinin iştirakı ilə tamaşa və konsert proqramı təqdim olunmuşdur. Nağıl qəhrəmanları ilə görüşən və Şaxta babadan yeni il hədiyyələri alan uşaqlar əsl bayram sevinci yaşamışlar.

Bayram şənliyinin aparıcıları culfalıları əlamətdar bayramlar münasibətilə təbrik edərək 2015-ci ilin Culfa rayonu üçün uğurlu olduğunu vurğulamış, sakinlərə yeni ildə ictimai-siyasi, iqtisadi, sosial və mədəni həyatda uğurlar arzulamışlar.

## Kəngərli rayonu



Muxtar respublikamızın davamlı sosial-iqtisadi inkişafından Kəngərli rayonuna da böyük pay düşüb. Ötən il 11 yaşını qeyd edən rayonda aparılan abadlıq-quruculuq işləri yola saldığımız 2015-ci ildə də sürətlə davam etdirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Sənaye Kompleksinin açılışı isə tarixi hadisə kimi yaddaşlarda qalıb. Yurdçu kəndində bir neçə sosial obyekt tikilib. Rayonda əhalinin keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təmin olunması və həmin sahədə çalışanların iş şəraitinin yaxşılaşdırılması məqsədilə rayon mərkəzində Kəngərli Rayon Elektrik Şəbəkəsi üçün yeni bina və "Qıvraq" elektrik yarımstansiyası istifadəyə verilib. 17 ədəd müxtəlif gücdə transformator təmir edilib, 72 abonent elektrik enerjisi ilə təmin olunub.

Bundan başqa, rayon mərkəzində Təhsil Şöbəsi, Uşaq-Gənclər Şahmat Məktəbi üçün yeni binalar istifadəyə verilib, yeni Ticarət-İaşə və Bazar Kompleksinin tikintisi başa çatdırılıb, qəsəbə məscidi əsaslı təmir olunub.

Ötən il kənd təsərrüfatında məhsuldarlığın artırılması və aqrar sahənin davamlı inkişafı diqqətdə saxlanılıb.

Rayonda 2015-ci ilin məhsulu üçün 8152 hektar sahədə əkin aparılıb, 4735 hektar sahədə taxıl əkini həyata keçirilib. Şəxsi təsərrüfatlarda 215 hektar sahədən kartof, 294 hektar sahədən tərəvəz, 180 hektar sahədən bostan, 113 hektar sahədən günəbaxan, 139 hektar sahədən qarğıdalı, 321 hektar sahədən paxlalı bitkilərin məhsulları tədarük edilib. 2016-cı ilin məhsulu üçün 3783 hektar sahədə taxıl əkini həyata keçirilib.

Yanvarın 1-də rayon mərkəzindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə keçirilən şənlikdə 2015-ci ildə rayonda bütün sahələrdə qazanılan uğurlar barədə geniş danışılıb. Şənlikdə rayonun musiqi kollektivlərinin səsləndirdikləri mahnılar çoxsaylı tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Yeni ilin personajları olan Şaxta baba və Qar qızın gəlişi uşaqlara şən əhval bəxş edib, onları sevindirib.

*Ardı 3-cü səhifədə*

## Şahbuz rayonu



Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər ölkəmizin hər yerində, eləcə də Naxçıvan Muxtar Respublikasında bütün sahələrin inkişafına təkan verib. Belə tədbirlər Şahbuz rayonunu da əhatə edib. Aparılan genişmiqyaslı quruculuq işləri Şahbuz şəhərini, eləcə də rayonun kəndlərini müasir görkəmə qovuşdurub. 2015-ci ildə də Şahbuz rayonunda bu tədbirlər böyük sürətlə davam etdirilib.

Rayon əhalisinin əsas məşğulluq sahəsi olan aqrar sahənin inkişafına göstərilən dövlət qayğısının nəticəsidir ki, torpaqlardan səmərəli istifadə olunmasına maraq xeyli artıb. 1344 hektar sahədə taxıl, 240 hektar sahədə paxlalı, 462 hektar sahədə kartof, 285 hektar sahədə tərəvəz, 10 hektar sahədə bostan bitkilərinin əkini həyata keçirilib. Ötən dövr ərzində rayonda 4 min 491 ton dənli-paxlalılar, 8 min 46 ton kartof, 4 min 973 ton tərəvəz, 124,6 ton bostan məhsulları, 7 min 945 ton meyvə, 168 ton üzüm istehsal edilib.

Təbii gözəllik olan yerdə insanların işləmək əzmi də yüksək olur. Elə bunun nəticəsidir ki, son illər ərzində bu bölgədə xeyli sayda quruculuq tədbirləri həyata keçirilib. Məlumat üçün bildirək ki, Şahbuz rayonunda 1 şəhər, 1 qəsəbə, 22 kənd var. Rayonun bütün yaşayış məntəqələrində kompleks quruculuq işləri aparılıb. Sevindirici haldır ki, ən ucqar dağ kəndləri olan Şada, Kükü, Kolanı, Biçənək, Keçili və adını sadalamadığımız neçə belə kəndlərə də bu quruculuq tədbirlərindən pay düşüb. Bütün bunlar barədə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Şahbuz şəhərində keçirilən tədbirdə geniş danışıldı. Rayon ictimaiyyətinə bölgənin musiqi kollektivlərinin ifasında bir-birindən maraqlı musiqi nömrələri təqdim olundu.

## Sədərək rayonu



Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Sədərək rayonunda keçirilən tədbirdə sərhəd bölgəsinin sakinləri yüksək fəallıqla iştirak edirdilər. Onların son illər bu rayonda həyata keçirilən quruculuq tədbirləri hesabına Sədərəyin müasir rayona çevrilməsindən qürur hissi duyduqlarını hiss etmək çətin deyildi. Rayon sakinləri Sədərəyin bir vaxtlar yaşadığı ağır günləri unutmur, qovuşduqları günlərin qədrini bilirlər.

Sədərəklilər keçən əsrin 80-ci illərinin sonu və 90-cı illərinin əvvəllərində düşmənə qarşı göstərdikləri qəhrəmanlıqları ilə dastan yazıblar. Sədərək belə insanların hesabına qorunub, bu gün də qorunur. Özü də yüksək səviyyədə – həm torpaq təəssübünü, yurd sevgisini hər şeydən üstün tutan sədərəklilərin, burada xidməti borcunu yerinə yetirən, sərhəddə ayıq-sayıq dayanan əsgərlərimizin hesabına, həm də dövlətimizin böyük qayğısı gücünə. Sədərəkdə torpaq həm qorunur, həm də becərilir. Elə 2015-ci ildə kənd təsərrüfatı sahəsində qazanılan uğurlar bunu deməyə əsas verir. "Kənd təsərrüfatı ili"ndə rayonda aqrar sahədə də xeyli uğurlar qazanılıb.

Bayram tədbirində dəfələrlə vurğulandı ki, sədərəklilər 2015-ci ili uğurla yola salıblar. Onlar 2016-cı ilə yüksək əhval-ruhiyyə ilə qədəm qoyublar. 2015-ci ildə rayon Tikinti-Quraşdırma İdarəsi tərəfindən 1 milyon 687 min manatlıq abadlıq və təmir işləri aparılıb, uşaq musiqi məktəbi üçün yeni binanın tikintisi və rayon İcra Hakimiyyətinin inzibati binasının əsaslı təmiri başa çatdırılıb.

Rayonda ekologiyanın mühafizəsi sahəsində görülən tədbirlərin davamı olaraq, 2015-ci ilin yaz və payız aylarında keçirilən yaşıllaşdırma tədbirləri çərçivəsində 5 hektar sahədə meşəsalma və 7 hektar sahədə bərpa işləri aparılıb, həmin sahələrə 10 min ədəd meyvə ağacı əkilib. Bundan əlavə, 2700 ədəd meşə, 425 ədəd həmişəyaşıl ağac, 3000 ədəd gül və bəzək kolları olmaqla, ümumilikdə, 16125 ədəd ağac, gül və bəzək kolları əkilib.

Bayramlar münasibətilə rayon mərkəzində təşkil olunan konsert sədərəklilərdə xoş ovqat yaradıb.

# 2015-ci il bütün sahələrdə qazanılan nailiyyətlərlə yadda qalıb

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində 2015-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.***

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov iclasda çıxış edərək bildirib ki, 2015-ci ildə 18 tibb müəssisəsi əhalinin istifadəsinə verilib, 7 tibb müəssisəsi üçün yeni obyektlərin tikintisi davam etdirilib. 2015-ci ilin ən böyük quruculuq ünvanlarından olan Naxçıvan Muxtar Respublika Xəstəxanasının ölkə Prezidenti İlham Əliyevin iştirakı ilə istifadəyə verilməsi ötən ilin əlamətdar hadisələrindən biridir.



Muxtar respublikada dispanserizasiya işini yaxşılaşdırmaq, əhalini kütləvi müayinələrdən keçirmək üçün ucqar dağ kəndlərində əhaliyə yüksəkixtisaslı səhiyyə xidmətləri göstərmək məqsədilə yaradılmış həkim briqadaları yenə də fəallıq göstərib, çox sayda insanın yerlərdə müayinə-müalicə işini təşkil edib, təhsil işçiləri arasında süd vəzi xərçənginin vaxtında aşkarlamaq üçün profilaktik kütləvi mammoqrafiya müayinələri, ilkin vərəm xəstəliyinin vaxtında aşkarlanması məqsədilə kiçikyaşlı uşaqlar arasında tuberkulin sınağı, yuxarı sinif şagirdləri və müəllimlər arasında flüoroqrafiya müayinəsi və məktəbyaşlı uşaqların kütləvi oftalmoloji, stomatoloji, ortopedik, endokrinoloji müayinələri davam etdirilib.

Vurğulanıb ki, 2015-ci ildə də tibb işçilərinin ixtisas səviyyəsini artırmaq məqsədilə çoxsaylı seminar və konfranslar keçirilib, həkim və orta tibb işçilərinin sertifikasiya işi davam etdirilib.

Bu müddət ərzində müxtəlif klinikalardan yüksəkixtisaslı həkimlər və kollektivlər muxtar respublikaya dəvət olunub və Naxçıvan həkimləri ilə birgə fəaliyyət göstərərək xeyli sayda əməliyyatlar aparıblar.

Sonra məruzə ətrafında çıxışlar olub.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində keçirilən kollegiya iclasında təhsil naziri Piri Nağıyev geniş məruzə ilə çıxış edərək bildirib ki, hər il olduğu kimi, 2015-ci ildə də muxtar respublikamızda məktəb binalarının tikintisi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi diqqət mərkəzində saxlanılıb. Belə ki, Naxçıvan şəhərində Naxçıvan Musiqi Kollecinin binası əsaslı şəkildə yenidən qurulub, Şərur rayonunda Kürkənd, Kürçülü, Axaməd, Yuxarı Yaycı, Cəlilkənd, Babək rayonunda Babək qəsəbə 2 nömrəli, Xal-xal, Nehrəm kənd 2 nömrəli, Ordubad rayonunda Ordubad şəhər 3 nömrəli, Gilançay, Tivi, Culfa rayonunda Qızılca, Gal kənd tam orta məktəbləri üçün binalar şagird və müəllimlərin, Kəngərli Rayon Təhsil Şöbəsi üçün inzibati bina isə təhsil işçilərinin istifadəsinə verilib.



Təhsil naziri qeyd edib ki, bəhs olunan dövrdə müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, əlavə təlim ehtiyaclarının müəyyənləşdirilməsi, onların fəaliyyətinin stimullaşdırılması və əməyinin qiymətləndirilməsinin təmin olunması məqsədilə 1-18 mart 2015-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində çalışan müəllimlərin attestasiyası keçirilib. Ali Məclis Sədrinin 22 iyun 2015-ci il tarixli "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında" Sərəncamı müəllimlərin böyük sevincinə səbəb olub.

Qeyd olunub ki, 2015-ci ildə məktəbi bitirən 3331 məzundan 2638-i ali məktəblərə qəbul üçün sənəd verib. Məzunlar arasında xüsusi təyinatlı ali təhsil müəssisələrinə sənəd verənlərin sayı 161 nəfər olub. Qəbul imtahanlarında məzunların 313-ü 500-700 arası bal toplayıb. Şərur rayon Zeyvə kənd tam orta məktəbinin məzunu Əli Allahverdiyev qəbul imtahanlarında 700 bal toplayıb. 2015-ci ildə 129 ümumtəhsil məktəbinin məzunları qəbul imtahanlarında yüksək nəticələr göstəriblər.

Ötən il tam orta təhsil bazasından sənəd verən abituriyentlərin 1582 nəfəri ali təhsil müəssisələrinə, 203 nəfəri müxtəlif ali hərbi məktəblərə, 267 nəfəri isə tam orta təhsil bazasından orta ixtisas məktəblərinə qəbul olunub.

Sonra məruzə ətrafında çıxışlar olub, qarşıda duran vəzifələrdən danışılıb.

* * *

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində kənd təsərrüfatı nazirliyinin kollegiya iclasında 2015-ci ilin yekunları və qarşıda duran vəzifələr haqqında məruzə ilə çıxış edən kənd təsərrüfatı naziri Elşad Əliyev bildirmişdir ki, 2015-ci ilin "Kənd təsərrüfatı ili" elan edilməsi muxtar respublikada kənd təsərrüfatının inkişafı istiqamətində mühüm qərarların qəbul olunması, bu sahəyə dövlət dəstəyinin daha da artırılması ilə əlamətdar olmuşdur. Muxtar respublikada aqrar islahatların aparılması, yeni mülkiyyət münasibətlərinə əsaslanan təsərrüfat qurumlarının yaradılması istiqamətində görülmüş işlər kənd təsərrüfatının dinamik inkişafına əlverişli şərait yaratmışdır.



İl ərzində meliorasiya və irriqasiya tədbirlərinin gücləndirilməsi, lizinq xidmətinin genişləndirilməsi, taxıl və soyuducu anbarların tutumunun artırılması, istixana komplekslərinin, quşçuluq və balıqçılıq təsərrüfatlarının, meyvə-tərəvəz emalı müəssisələrinin yaradılması muxtar respublikada kənd təsərrüfatının sürətli inkişafını təmin etmişdir.

Belə ki, son illərdə ümumi sahəsi 100 min kvadratmetrdən artıq olan istixana kompleksləri, ümumi tutumu 12 min 730 ton olan soyuducu anbarlar, tutumu 27 min ton olan uzunmüddətli və 43 min ton olan qısamüddətli taxıl ehtiyatı anbarları, 17 taxıl emalı müəssisəsi, 222 heyvandarlıq, 64 quşçuluq, 94 arıçılıq, 14 balıqçılıq, 68 bağçılıq və üzümçülük təsərrüfatı yaradılmışdır.

Bitkiçiliyin inkişafına birbaşa dəstək tədbirləri çərçivəsində torpaq mülkiyyətçilərinə 2015-ci il ərzində 3 milyon 673 min manat məbləğində yardım edilmiş, 2 milyon 407 min manat dəyərində 6025 ton mineral gübrə verilmiş və kənd təsərrüfatı texnikalarına 321 min manat məbləğində güzəşt tətbiq edilmişdir.

Diqqətə çatdırılmışdır ki, 2015-ci il kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafı üçün banklar və bank olmayan kredit təşkilatları tərəfindən 19 milyon manatdan artıq kredit verilmişdir.

Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində hesabat ilində muxtar respublika üzrə 106 min 282 ton taxıl, 4481 ton dən üçün qarğıdalı, 6589 ton dənli-paxlalı, 690 ton dən üçün günəbaxan, 45043 ton kartof, 82016 ton tərəvəz, 38003 ton bostan, 51111 ton meyvə, 15354 ton üzüm məhsulu istehsal edilmişdir. 2014-cü illə müqayisədə 3212 ton taxıl, 255 ton qarğıdalı, 3247 ton dənli-paxlalı, 27 ton günəbaxan, 3637 ton kartof, 15285 ton tərəvəz, 3664 ton bostan, 14915 ton meyvə və 959 ton üzüm məhsulu çox istehsal olunmuşdur.

Kənd təsərrüfatı sahəsinin dinamik inkişafı ixracın həcminə də müsbət təsir göstərmiş, nəticədə, 2015-ci ildə muxtar respublika üzrə 96 milyon ABŞ dollarından artıq həcmdə kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur.

Görülmüş işlərin nəticəsidir ki, hesabat ilində kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 403 milyon manata yaxın olmuşdur. Bu da əvvəlki illə müqayisədə 12 faiz çoxdur.

Nazir hesabat ilində buraxılmış nöqsanlardan danışaraq bildirmişdir ki, bitkiçilik məhsullarının yerli şəraitə uyğun əkilməsi, növbəli əkinin aparılması və torpaqların münbitliyinin artırılması ilə bağlı yerlərdə aparılan maarifləndirici tədbirlərin kəmiyyətindən çox keyfiyyətinə diqqət artırılmalıdır. Yeni texnologiyalardan, keyfiyyətli toxum sortlarından və mineral gübrələrdən səmərəli istifadə təmin edilməlidir. Əkin sahələrində su itkisinin və şoranlaşmanın qarşısını almaq məqsədilə şırım üsulu ilə əkinə üstünlük verilməsi nəzarətdə saxlanılmalıdır.

Məruzə ətrafında müzakirələrdə nazirliyin əməkdaşları Əyyub Abdullayevin, Əsgər Həsənovun, Zərrab Əfəndiyevin, "Araz" Elm-İstehsalat Birliyinin direktoru Bəhruz Bayramovun çıxışları olmuşdur.

**Xəbərlər şöbəsi**

## Ötən ilin yekunları müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya 2015-ci ildə fəaliyyətini gücləndirib, qanunvericilikdən, əsasnamədən və iş planından irəli gələn vəzifələri icra edib. Hesabat dövründə dövlət qulluğuna dair qanunvericiliyin dövlət orqanlarında tətbiqinə nəzarət edilib, 5 dövlət orqanının qanunvericiliyə uyğun olmayan 6 qərarı ləğv etdirilib.

Bu sözləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada 2015-ci ilin yekunları və 2016-cı ildə qarşıda duran vəzifələrlə bağlı keçirilən tədbirdə komissiya sədri İsmayıl Qəribli deyib.

İsmayıl Qəribli bildirib ki, komissiya 2015-ci ildə Naxçıvan Muxtar Respublikasında vətəndaşların dövlət qulluğuna qəbulunun mərkəzləşdirilmiş qaydada müsabiqə və şəffaflıq şəraitində həyata keçirilməsini təşkil edib. Dövlət orqanlarının yüksək hazırlıqlı və zəruri peşə keyfiyyətlərinə malik kadrlarla komplektləşdirilməsi məqsədilə elan edilmiş müsabiqələrdə 725 namizəd iştirak edib, test və müsahibə mərhələlərində 142 namizəd müvəffəqiyyət qazanıb. Həmin şəxslərin 137-si vəzifəyə təyin olunub, 1 namizəd təklif olunan vəzifədən imtina edib. Namizədlərdən 4-ü ehtiyat kadr siyahısına salınıb. Gələcəkdə həmin şəxslərin münasib işlə təmin olunması diqqətdə saxlanılacaqdır.

Qeyd olunub ki, komissiya tərəfindən dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqələrin test imtahanlarının keçirilməsinə köməklik göstərilib. 2015-ci il ərzində Daxili İşlər, Fövqəladə Hallar və Vergilər nazirlikləri, o cümlədən Dövlət Miqrasiya Xidmətində vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqələrin test imtahanlarında 497 namizəd iştirak edib, onlardan 104-ü müvəffəqiyyət qazanıb.

“Hesabat dövründə komissiya dövlət qulluğu haqqında qanunvericiliyin tətbiqi ilə bağlı maarifləndirmə tədbirləri həyata keçirib. Muxtar respublikanın şəhər və rayonlarında 5-28 avqust 2015-ci il tarixlərdə etik davranış qaydalarına riayət olunması, reyestrin aparılması, dövlət qulluqçularının şəxsi işinin aparılması qaydaları və digər mövzularda 474 dövlət qulluqçusunun iştirakı ilə seminarlar keçirilib”, – deyən İsmayıl Qəribli bildirib ki, digər mərkəzi icra hakimiyyəti orqanları ilə münasibətlər gücləndirilib, dövlət orqanlarının kadr qurumları ilə mütəmadi əlaqə saxlanılıb, dövlət qulluqçularının şəxsi işlərinin və reyestrin aparılması qaydası, ixtisas dərəcələrinin verilməsi və digər məsələlərlə bağlı metodik köməklik göstərilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

## Pedaqoji kadrların hazırlanması üçün yaradılmış şəraitdən səmərəli istifadə olunur

Bu gün Naxçıvan Müəllimlər İnstitutunda 92 nəfərdən ibarət professor-müəllim heyəti fəaliyyət göstərir. Kollektiv Azərbaycanın parlaq gələcəyi üçün müsbət keyfiyyətləri özündə əks etdirən, dövlətə və dövlətçiliyə, müstəqilliyə sədaqətli, müəllim adını uca tutan kadrların yetişməsi üçün yaradılmış şəraitdən səmərəli istifadə edir, göstərilən qayğıya əməli işlə cavab verməyə səy göstərir.



Bu fikirlər Naxçıvan Müəllimlər İnstitutunda keçirilən 2015-ci ilin yekunlarına həsr olunmuş tədbirdə səsləndirilmişdir.

İnstitutun rektoru, professor Oruc Həsənli ali təhsil müəssisəsinin fəaliyyəti və qarşıda duran vəzifələrlə bağlı danışaraq bildirmişdir ki, Naxçıvan Müəllimlər İnstitutunun elmi-təşkilati strukturu 6 kafedradan və Əlavə təhsil mərkəzindən ibarətdir. Bu gün institutda 1045 tələbə təhsil alır. Onların intellektual səviyyəli kadrlar kimi yetişmələri diqqət mərkəzində saxlanılır. Belə ki, professor-müəllim heyəti müxtəlif təlim üsullarından istifadə edir, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə öz töhfələrini verməyə səy göstərir.

Qeyd olunmuşdur ki, 2015-ci ildə institutda semestr imtahanlarının şəffaf keçirilməsi diqqət mərkəzində saxlanılmış, müxtəlif tədbirlər keçirilmişdir. Bu məqsədlə ali təhsil müəssisəsində kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması prosesi davam etdirilmiş, kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində müasir kitabxana-informasiya xidmətinin dünya standartları səviyyəsinə çatdırılması və sair kimi vəzifələr yerinə yetirilmişdir. İnstitutun professor-müəllim və tələbə heyətinə 41645 kitab fonduna malik kitabxanadan istifadə imkanları yaradılmış, kitabxana yeni metodik vəsait və tədris avadanlıqları ilə təmin olunmuşdur.

İnstitutda elmi-praktik konfransların keçirilməsi də diqqət mərkəzində saxlanılmışdır. 2015-ci ildə institutda 2 respublika səviyyəli və 1 beynəlxalq, 17 institut səviyyəli elmi-praktik konfrans keçirilmişdir. 2015-2016-cı tədris ilində institutda fəaliyyət göstərən kabinet və laboratoriyaların, Əlavə təhsil mərkəzinin, Kurikulum mərkəzinin iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında yerinə yetirilməsinə nəzarət artırılmışdır.

Bu dövrdə “Elektron elm” idarəetmə sisteminin qurulması işi davam etdirilmişdir.

Tədbirdə elmi işlər üzrə prorektor, fizika-riyaziyyat elmləri doktoru Yaqub Məmmədov, Pedaqoji fakültənin dekanı, dosent Azad Novruzov, Əlavə təhsil mərkəzinin metodisti Süsən Kərimli və başqaları çıxış etmişlər.

## Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə tədbirlər keçirilib

*“Naxçıvan” Universitetinin İdarəetmə fakültəsinin təşkilatçılığı ilə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr edilmiş tədbir keçirilmişdir.*

Tədbiri giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açaraq bildirmişdir ki, ulu öndər Heydər Əliyevin ən böyük arzularından biri dünyada yaşayan azərbaycanlılar arasında birlik və həmrəyliyin formalaşdırılması idi. 1991-ci il dekabrın 16-da dahi şəxsiyyətin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd olunması haqqında qərar qəbul etmişdir. 1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə qayıdan ulu öndər xaricdə yaşayan azərbaycanlıların təşkilatlanmasını, onların problemlərinin həllini və hüquqlarının müdafiəsini təmin etməyi diqqət mərkəzində saxlayırdı. Görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 2001-ci ilin noyabr ayında Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayı xarici ölkələrdə yaşayan və fəaliyyət göstərən həmvətənlərimizin ümumi məqsəd, vahid Azərbaycançılıq ideyası ətrafında birləşməsi yolunda mühüm əhəmiyyət kəsb etmişdir.

Tədbirdə tərbiyə işləri üzrə prorektor Əli Yusifov və İdarəetmə fakültəsinin dekanı Elbrus İsayev çıxış etmişlər.

Sonra universitetin tələbələrindən ibarət Şən və Hazırcavablar Klubunun üzvləri yumoristik səhnəciklər göstərmiş, Vətənimizə həsr edilmiş şeirlər söyləmiş, mahnılar ifa olunmuşdur.

* * *

*Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində də tədbir keçirilib.*

Tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Sona Məmmədova çıxış edərək uşaqlara göstərilən dövlət qayğısından danışıblar. Bildirilib ki, muxtar respublikamızda xüsusi qayğıya ehtiyacı olan uşaqlara həssaslıqla yanaşılır, onların hüquqlarının qorunması, asudə vaxtlarının səmərəli təşkili, cəmiyyətə inteqrasiya olunmaları diqqət mərkəzində saxlanılır. Bu qəbildən olan uşaqların ziyarət olunması, onlara hədiyyələrin verilməsi dövlətin uşaqlara diqqət və qayğısının bariz nümunəsidir.

Vurğulanıb ki, muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsil alması, reabilitasiyası və cəmiyyətə inteqrasiyası üçün uşaq müəssisələri yaradılıb, bu qrupdan olan uşaqlar müvafiq müəssisələrə cəlb olunub. Bu da valideynlər tərəfindən razılıqla qarşılanır.

Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinin baş həkimi Rəsmiyyə Xasayeva bu kateqoriyadan olan uşaqlara göstərilən qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Tədbirdə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin rəqs qrupunun ifasında rəqslər oynanılıb, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının aktyorları tamaşalardan səhnəciklər göstəriblər.

Bayram şənliyində sağlamlıq imkanları məhdud 19 uşağa hədiyyələr verilib.

* * *

*Muxtar respublikada bayram günü ahılların ziyarət edilməsi, onlara bayram sovqatlarının verilməsi artıq ənənə halını alıb. Bu ənənənin davamı olaraq dekabrın 30-da Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Şahbuz şəhərindəki Ahıllar evində tədbir keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova və Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini Mətanət Məmmədova çıxış edərək sakinləri bayram münasibətilə təbrik ediblər.

Çıxışlarda vurğulanıb ki, muxtar respublikada həyata keçirilən davamlı islahatlar əhalinin, o cümlədən ahıl insanların firavan yaşayışını təmin edib. Bu kateqoriyadan olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzindədir. Ahılların sağlamlıqlarının qorunması, habelə asudə vaxtlarının səmərəli təşkili məqsədilə həyata keçirilən ardıcıl tədbirlər onlar tərəfindən dövlətimizin öz vətəndaşlarına yüksək qayğısı kimi dəyərləndirilir.

Bildirilib ki, tənha ahıllara göstərilən dövlət qayğısının daha bir nümunəsi olan Ahıllar evində sakinlərin rahat yaşaması üçün hər cür məişət şəraiti yaradılıb.

Tədbirdə Şahbuz Rayon Mədəniyyət Evinin musiqi kollektivi konsert proqramı ilə çıxış edib.

Sonda Ahıllar evinin sakinlərinə bayram hədiyyəsi təqdim olunub. Ahıllar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Ordubad şəhər M.Füzuli adına tam orta internat məktəbində keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Qadir Əliyev, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aytən Məmmədova və Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli uşaqları bayramlar münasibətilə təbrik ediblər.

Bildirilib ki, hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlara həssaslıqla yanaşılır, onlara hərtərəfli diqqət və qayğı göstərilir. Sonra təşkilatçılar tərəfindən uşaqlara hədiyyələr verilib.

Məktəbin direktor müavini Mehman Vəlibəyov uşaqlara göstərilən qayğıya görə minnətdarlığını bildirib.

## Məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkili diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb edilməsi üzrə Dövlət Proqramı”na uyğun olaraq məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkilinə məsul işçilərin peşəkarlıq səviyyələrinin artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində kurs təşkil edilib.

Tədbiri komitənin aparat rəhbəri Zeynal Hümbətov açaraq həmin proqramın icrası ilə bağlı görülən işlər haqqında ətraflı məlumat verib.

Naxçıvan Müəllimlər İnstitutunun psixoloq-müəllimi Çapay Quliyev çıxış edərək bildirib ki, bu qəbildən olan uşaqların erkən yaşlarında sağlam uşaqlarla birgə təlim-tərbiyə almaları onların inkişafına müsbət təsir göstərir. Ailə və təhsil müəssisələri arasında sıx iş birliyi də, nəticə olaraq, bu uşaqların psixologiyasında yaxşı çalarların formalaşmasında ciddi vasitədir. Nitq qüsuru olan uşaqların çətinliklərindən danışan psixoloq qeyd edib ki, bu uşaqlar həmyaşıdları ilə ünsiyyətdə, uşaq bağçasında, məktəbdə müxtəlif problemlərlə üzləşirlər. Bu da onların davranışına, xasiyyətinə mənfi təsir edir. Belə uşaqların bir hissəsi digər uşaqlarla ünsiyyətdən çəkinir, tək qalmağı xoşlayır, qapalı böyüyürlər. Məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkilinə məsul işçilər bu məsələlərə xüsusi diqqət etməli, belə uşaqları daim nəzarətdə saxlamalı, onların cəmiyyətə inteqrasiyası üçün digər uşaqlarla daha çox ünsiyyət qurmalarını təmin etməlidirlər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

### *İtmişdir*

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, bina 7, mənzil 19-da yaşayan İbrahimova Minayə İdris qızının adına olan 5066 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, bina 7, mənzil 18-də yaşayan İbrahimova Minayə İdris qızının adına olan 4571 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 01